

Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 31 (21.692)

14 fevral 2017-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də Gürcüstanın xarici işlər naziri Mixeil Canelidzeni qəbul edib.

Prezident İlham Əliyev Azərbaycan-Gürcüstan əlaqələrinin çox uğurlu və dinamik şəkildə inkişaf etdiyini vurğuladı. Ölkələrimiz arasında bütün istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, nəqliyyat, energetika, humanitar sahələrdə əməkdaşlığın genişləndirilməsinin vacibliyini bildirən dövlətimizin başçısı gündəlikdə duran məsələlərin çox geniş və əhatəli olduğunu dedi. Əməkdaşlığımızın yaxşı nəticələr verdiyini vurğulayan Prezident İlham Əliyev bu nəticələrin daha da möhkəmləndirilməsinin və bundan sonra da ölkələrimizin bir-birinə yaxınlaşması, dinamik inkişafı üçün birgə səylərin artırılmasının vacibliyini qeyd etdi.

Bakıya hər dəfə səfər etməsindən məmnunluğunu vurğulayan Gürcüstanın xarici işlər naziri Mixeil Canelidze paytaxtımızın böyük sürətlə inkişaf etməsinin dost Gürcüstan üçün çox sevindirici hal olduğunu bildirdi. Mixeil Canelidze qeyd etdi ki, xalqlarımız nəinki qonşudur, eyni zamanda, bizim dostluğumuz bir nümunədir.

Görüşdə Azərbaycan ilə Gürcüstan arasında ticarət, turizm və mədəniyyət sahələrində əlaqələrin daha da genişləndirilməsi, Cənub Qaz Dəhlizinin icrası, hökumətlərarası komissiyanın fəaliyyətinin gücləndirilməsi və digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

## Naxçıvanda sahibkarlarla görüş keçirilmişdir





Fevralın 11-də Naxçıvan Biznes Mərkəzində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun muxtar respublikada fəaliyyət göstərən sahibkarlarla görüşü olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə çıxış edərək demişdir: Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş quruculuq xətti ölkəmizdə davamlı inkişafı təmin etmişdir. Sahibkarlığın inkişafı bu istiqamətdə nəzərdə tutulmuş mühüm faktordur. İqtisadiyyatın canlandırılmasının əsas yolunun islahatlardan və sahibkarlığın inkişafından keçdiyini bildirən ulu öndərimiz deyirdi ki, ***"Bizim yolumuz islahatlar yoludur. Yolumuz bazar iqtisadiyyatının inkişaf etdirilməsi yoludur. Yolumuz sahibkarlığın inkişaf etdirilməsi yoludur".*** Hazırda bu yol uğurla davam və inkişaf etdirilir. Azərbaycan Respublikası Prezidentinin regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul etdiyi dövlət proqramları ölkəmizin, eləcə də muxtar respublikamızın davamlı inkişafına, sahibkarlıq fəaliyyətinin genişləndirilməsinə gətirib çıxarmışdır. Cari il yanvar ayının 30-da "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının üçüncü ilinin yekunlarına həsr olunmuş konfransda ölkə Prezidenti cənab İlham Əliyev sahibkarlara dövlət dəstəyinin bundan sonra da davam etdiriləcəyini bildirərək demişdir: ***"Sahibkarlığın inkişafı ilə bağlı bütün lazımi tədbirlər görülür... Biz bütün bu işləri görürük ki, Azərbaycanda inkişaf hərtərəfli və sürətli olsun".***

Ali Məclisin Sədri demişdir: Milli iqtisadiyyatı formalaşdırmaq, daxili bazarı xarici amillərin təsirindən qorumaq üçün sağlam sahibkarlıq mühitinin yaradılması zəruridir. Bu amil nəzərə alınaraq ölkəmizdə, o cümlədən Naxçıvan Muxtar Respublikasında xüsusi mülkiyyətin, kiçik və orta sahibkarlığın inkişafı diqqət mərkəzində saxlanılır. Sahibkarlara göstərilən dövlət maliyyə dəstəyinin həcminin ildən-ilə artırılması, bu sahədə fəaliyyətə süni müdaxilələrin aradan qaldırılması, bir sıra vergi və gömrük güzəştlərinin tətbiqi sahibkarlıq fəaliyyətinin inkişafına öz təsirini göstərmişdir. 2016-cı ildə Sahibkarlığa Kömək Fondu tərəfindən özəl bölmənin inkişafına 15 milyon manatdan artıq kredit verilmişdir. Fəaliyyətin bu növü ilə məşğul olmaq istəyən 33 hüquqi və 2173 fiziki şəxs qeydiyyata alınmış, 49 yeni istehsal və xidmət sahəsi fəaliyyətə başlamışdır. Muxtar respublikada sahibkarlığın inkişafı sahəsində yaradılan şəraitin nəticəsidir ki, ötən il ümumi daxili məhsulda özəl bölmənin xüsusi çəkisi artaraq 87 faizi ötmüşdür. Hazırda sənaye sahəsində məhsul istehsalının 96 faizi, tikintidə görülən işlərin 85 faizi, nəqliyyat xidmətinin 82 faizi, rabitə xidmətinin 81 faizi, ticarət və mehmanxana xidmətlərinin isə 100 faizi özəl bölmənin payına düşür ki, bunlar da çox yüksək göstəricilərdir.

"Bu gün dünyada gedən böhrandan qorunmağın ən yaxşı yolu sahibkarlıq fəaliyyətinin daha da genişləndirilməsindən və yerli istehsalın inkişaf etdirilməsindən keçir", – deyən Ali Məclisin Sədri bildirmişdir ki, bu, bir tərəfdən idxaldan asılılığı aradan qaldırırsa, digər tərəfdən əhali məşğulluğuna əhəmiyyətli təsir göstərir. Bu istiqamətdə həyata keçirilən tədbirlər öz nəticəsini göstərmiş, yeni istehsal müəssisələri fəaliyyətə başlamış və yerli istehsalın həcmi artmışdır. 1996-cı ildə muxtar respublikada 10 adda məhsul istehsal olunurdusa, hazırda 366 adda məhsul istehsal olunur. Yeni yaradılan sahibkarlıq müəssisələri hesabına əhalinin 344 növdə məhsula olan tələbatı tamamilə yerli istehsal hesabına ödənilir. Əhalinin ərzaqla təminatında kənd təsərrüfatının mühüm rolu vardır. Ona görə bu sahədə sahibkarlığın inkişafına dövlət tərəfindən hərtərəfli qayğı göstərilir. Aqrar sektorda fəaliyyət göstərən sahibkarlar torpaq vergisi istisna olmaqla bütün növ vergilərdən azaddırlar. Onlara güzəştli şərtlərlə texnika, yanacaq, kredit, subsidiyalar, gübrə verilir, suvarma sistemlərinin təkmilləşdirilməsi üçün yeni infrastruktur yaradılır. Bütün bunları həyata keçirməkdə məqsəd məhsul bolluğuna nail olmaqdan, əksər kənd təsərrüfatı məhsullarına olan tələbatın yerli istehsal hesabına ödənilməsini təmin etməkdən ibarətdir.

Qeyd olunmuşdur ki, sənaye sahəsində də sahibkarlıq fəaliyyəti genişlənmişdir. Muxtar respublikada həyata keçirilən tədbirlər və mövcud şərait iri sənaye komplekslərinin və istehsal sahələrinin yaradılmasına səbəb olub. Vaxtilə ümumi daxili məhsul istehsalında aqrar sahənin ağırlıq təşkil etdiyi muxtar respublikada bu gün aqrar-sənaye kompleksi böyük üstünlüyə malikdir. Hazırda Naxçıvan Muxtar Respublikasında avtomobil və tikinti materialları, ərzaq və məişət əşyaları istehsalı ilə məşğul olan çoxsaylı müəssisələr fəaliyyət göstərir. 1996-cı ildə muxtar respublikada, ümumilikdə, 40 sənaye müəssisəsi vardısa, bu gün onların sayı 11 dəfə artırılaraq 442-yə çatdırılmışdır. Yeni fəaliyyətə başlayan müəssisələr, əsasən, yerli xammaldan istifadə əsasında öz fəaliyyətlərini qururlar ki, bu da hazır məhsulun daha ucuz qiymətə istehlakçılara çatdırılmasına imkan yaradır. Halhazırda muxtar respublikada mövcud olan 442 istehsal müəssisəsindən 311-i və ya 70 faizi tamamilə yerli xammaldan istifadə edərək fəaliyyət göstərir. Bu hesaba bir tərəfdən digər sahələr də inkişaf edir, ikinci tərəfdən isə daxili bazar etibarlı şəkildə qorunur.

Ali Məclisin Sədri demişdir: Naxçıvan bu gün dünyaya açılır. Qədim tarixi, zəngin mədəniyyəti, müasir inkişafı və ekoloji təmiz məhsulları hesabına muxtar respublikaya hər il yüz minlərlə turist gəlir. Bu isə öz növbəsində xidmət sektorunun inkişafına da öz təsirini göstərir. Sahibkarlıq müəssisələrinin bu sahədə fəaliyyəti təqdirəlayiqdir və qarşıdakı dövrdə bu sahədə fəaliyyət daha da genişləndiriləcəkdir. Sahibkarlıq o yerdə inkişaf edir ki, orada manеələr aradan qaldırılır, istehsal olunan məhsulların bazarda satışı rahat həyata keçirilir. Bu gün muxtar respublikada təşkil olunan yarmarkalar da daxili bazarı xarici təsirlərdən qoruyur. Yerli məhsulların satışına üstünlük verilir. Kənd təsərrüfatı və yerli istehsal məhsullarının xarici bazarlara çıxış imkanlarının genişləndirilməsinə də dövlət tərəfindən dəstək verilir, müəssisələrin ixrac potensialının artırılması diqqətdə saxlanılır. Görülən işlərin nəticəsidir ki, xarici ticarət dövriyyəsində də özəl bölmənin xüsusi çəkisi artmışdır.

Əldə olunmuş nəticələrə əsaslanaraq demək mümkündür ki, muxtar respublikada sahibkarlığın inkişafı üçün nəzərdə tutulmuş tədbirlər vaxtında həyata keçirilir. Qalır təşəbbüs göstərmək və mövcud şəraitdən səmərəli istifadə etmək. Bu gün dövlət orqanlarının sahibkarlığın inkişafına baxışı aydındır. Biz nə istəyirik? İstəyirik ki, sahibkarlar sinfi formalaşsın, sahibkarlığın inkişafı hesabına yeni iş yerlərinin açılması, keyfiyyətli məhsul istehsalı davam etdirilsin. Hər bir sahibkar da istəyər ki, sabitliyin təmin olunduğu yerdə fəaliyyət göstərsin. Bir sözlə, hər bir sahibkar məqsədyönlü fəaliyyəti ilə öz biznesinin və ölkə iqtisadiyyatının inkişafına töhfəsini verməlidir.

Ali Məclisin Sədri bu yolda hamıya uğurlar arzulamış, səmərəli fəaliyyət göstərən sahibkarlara təşəkkürünü bildirmişdir.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Famil Seyidov çıxış edərək demişdir ki, muxtar respublikada 2016-cı ildə sosial-iqtisadi inkişafı xarakterizə edən ümumi daxili məhsul istehsalının həcmi artaraq 2 milyard 582 milyon 361 min manat təşkil etmişdir. Yeni normativ hüquqi aktların qəbulu, sahibkarlığa dövlət dəstəyi mexanizmlərinin genişləndirilməsi, maarifləndirmə, sahibkarların işgüzar əlaqələrinin inkişafı və müxtəlif növ xidmətlərin göstərilməsi kimi kompleks tədbirlər əlverişli biznes mühitinin inkişafına şərait yaratmışdır. Ötən il sahibkarlara verilmiş kreditlərin 79 faizi sənaye və kənd təsərrüfatı olmaqla real sektorun, 21 faizi isə xidmət sektorunun payına düşmüş, 6 heyvandarlıq, bir quşçuluq, bir balıqçılıq, 6 soyuducu anbar və 3 istixana təsərrüfatı fəaliyyətə başlamışdır. Sahibkarların sayının artması məşğulluq problemlərinin həllinə də əhəmiyyətli təsir göstərib. Bu fəaliyyətin nəticəsində 2016-cı ildə 3 mindən artıq yeni iş yeri açılıb. Müasir texnologiyalara əsaslanan müəssisələrin yaradılması ixracın genişlənməsinə yeni imkanlar yaratmış, elektrik enerjisi, ərzaq, tikinti, mebel, yüngül sənaye məhsulları xarici ölkələrə ixrac edilmişdir.

"Naxçıvan Muxtar Respublikası Arıçıları" İctimai Birliyinin sədri Vaqif Məmmədov demişdir ki, muxtar respublikada qədim və

Ardı 2-ci səhifədə

çox əhəmiyyətli təsərrüfat sahəsi olan arıçılığa göstərilən dövlət qayğısı nəticəsində bu sahə yüksək inkişaf mərhələsinə qədəm qoymuş, arıçılıqla məşğul olmaq istəyən sahibkarlıq subyektlərinin sayı ildən-ilə artmışdır. Son illər ərzində Sahibkarlığa Kömək Fondu tərəfindən arıçılıqla məşğul olan 102 sahibkarlıq subyektinə 727 min manat həcmində kreditlər verilmiş, balın emalı və qablaşdırılması ilə məşğul olan 5 istehsal müəssisəsi yaradılmışdır. Son illər Naxçıvanda arıçılığın inkişafı sahəsində görülmüş tədbirlər nəticəsində arı ailələrinin sayı 2000-ci ildə 12 min 620 arı ailəsindən 71 min arı ailəsinədək artmışdır. Bu gün muxtar respublikada 4800-dən çox sahibkar arıçılıqla məşğul olur. 2016-cı ildə muxtar respublikada 1403 ton bal istehsal edilmiş, "Arıçılıq məhsulları – bal festivalı" keçirilmişdir. "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı" yerli və ənənəvi arı cinslərinin yetişdirilməsinə, arı ailələrindən yüksək məhsul götürülməsinə, xəstəliklərə qarşı vaxtında mübarizə aparılmasına, arıçıların dövlət maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsinə, arıçılıq məhsullarının ixracına şərait yaradacaqdır.

Ali Məclisin Sədri muxtar respublikada arıçılıq üçün hərtərəfli şəraitin olduğunu nəzərə çatdıraraq İqtisadiyyat və Kənd Təsərrüfatı nazirlikləri tərəfindən arıçılığın inkişafı ilə bağlı tədbirlərin bundan sonra da davam etdirilməsi, bu sahədə mütərəqqi üsulların tətbiqi, maarifçilik işinin aparılması, arıçıların xarici ölkələrdə keçirilən konfranslarda iştirakının təmin olunması ilə bağlı tapşırıqlar vermişdir.



Kəngərli rayonunun Çalxanqala kəndində yaradılan heyvandarlıq təsərrüfatının sahibkarı Pərviz Məmmədov çıxış edərək demişdir: Torpaq mülkiyyətçilərinə subsidiya və kreditlər verilməsi, texnika ilə təminatın ilbəil yaxşılaşması, məhsul istehsalçılarına hər cür dəstək göstərilməsi və aqrar sektorun inkişafına yaradılan münbit şəraitdən bəhrələnərək 2010-cu ildə fermer təsərrüfatımızın yaradılmasına başlamışıq. Təsərrüfatın ümumi sahəsi 15 hektardır. İlk illərdə Sahibkarlığa Kömək Fondundan götürdüyümüz güzəştli kredit və şəxsi vəsait hesabına badam, ərik və üzüm bağı saldıq. İlk illərdən başlayaraq yüksək məhsuldarlığa və keyfiyyətli məhsul istehsalına nail olduq. Daha sonra məhsullarımızın satışından əldə etdiyimiz 10 min manat vəsait hesabına 70 baş xırdabuynuzlu və 6 baş iribuynuzlu olmaqla heyvandarlıq təsərrüfatı yaratdıq. Təsərrüfatımızın fəaliyyətə başlaması əhalinin məşğulluğunun artırılmasında da mühüm rol oynamış, ailəmizin işçi qüvvəsindən əlavə 5 yeni iş yeri açılmışdır. Təsərrüfatda yaradılan hər cür şərait məhsuldarlığın intensiv yolla artırılmasına, mövsümi ekoloji təmiz məhsulların istehsalına imkan verir. Sahibkarlara göstərilən qayğıdan bəhrələnərək bu ildən heyvandarlıq təsərrüfatının genişləndirilməsinə başlamışıq. Yaradılan şəraitə görə minnətdarlıq edən sahibkar fəaliyyətlərini daha da səmərəli quraraq göstərilən etimadı doğruldacaqlarını bildirmişdir.

Ali Məclisin Sədri sahibkarlığın çoxşaxəli inkişafının əhəmiyyətini qeyd etmiş, muxtar respublikada bu sahədə görüləcək işləri diqqətə çatdırmışdır.

Sonra Ali Məclisin Sədri yeni istehsal və xidmət sahələrinin yaradılması üçün 6 sahibkara güzəştli kreditlərin çeklərini təqdim etmişdir. Bu kreditlər kənd təsərrüfatı texnikalarının alınması, heyvandarlıq, plastik tara istehsalı və bağçılıq təsərrüfatlarının yaradılmasına sərf olunacaqdır.

Tədbirdə 2016-cı ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafından bəhs edən film nümayiş olunmuşdur.

Sonda Ali Məclisin Sədri Naxçıvan Biznes Mərkəzinin sərgi salonunda muxtar respublikada istehsal olunan məhsullardan ibarət sərgiyə baxmışdır.

Qeyd olunmuşdur ki, sərgi salonunda 88 müəssisənin 189 növdə və 988 çeşiddə məhsulu, 15 sənətkar tərəfindən hazırlanan 137 əl işi, rəsm əsərləri, xalçalar, Naxçıvan Muxtar Respublikasının istehsal müəssisələrinin xəritəsi nümayiş olunur. Sahibkarlığın inkişafı sahəsində həyata keçirilən tədbirlər muxtar respublikada istehsal olunan məhsulların çeşidinin və keyfiyyətinin artmasına səbəb olub. Bu da daxili tələbatı ödəməklə yanaşı, həm də sahibkarlıq müəssisələrinin ixrac imkanlarını artırır. Hazırda Naxçıvan Avtomobil Zavodunda tələbata uyğun, eləcə də sifariş əsasında 14 modeldə avtomobil istehsal olunur. Keyfiyyət və sərfəli qiymət təklifi bu avtomobillərə marağı artırmışdır.

Ali Məclisin Sədri muxtar respublikada istehsal olunan məhsulların ixrac imkanlarının artırılması, istehsal prosesində qənaətcil texnologiyaların tətbiq olunması, sahibkarlar arasında əlaqələrin qurulması və birgə fəaliyyətin təşkili barədə aid təşkilatlara tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

*İstehsal müəssisələri*

## Süfrələrimizin *"Bərəkət"*li məhsulları

***Əlverişli sahibkarlıq və biznes mühitinin formalaşdırılması, işsizlik probleminin əsaslı həlli, əhalinin rifah halının yaxşılaşdırılması Naxçıvan Muxtar Respublikasında həyata keçirilən iqtisadi siyasətin əsas istiqamətlərindəndir. Kənd təsərrüfatında məhsul istehsalının stimullaşdırılması, əhalinin ərzaq məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsi məqsədilə həyata keçirilən tədbirlər muxtar respublikanın iqtisadi mənzərəsinin dəyişməsində əhəmiyyətli rol oynayır. Bütün bunlar – iqtisadiyyatın şaxələndirilməsi, sahibkarlara dövlət dəstəyinin gücləndirilməsi özəl sektorun inkişaf etməsinə şərait yaradıb. Bu isə ümumi daxili məhsul istehsalında özəl bölmənin payının 87 faiz olması ilə nəticələnib.***



Daxili bazarı yüksəkkeyfiyyətli yerli məhsullarla təmin edən müəssisələrdən biri də Naxçıvan şəhərində fəaliyyət göstərən "Gəmiqaya Bərəkət Qida Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətidir.

Dövlət maliyyə dəstəyi ilə müəssisədə çörək, makaron və peçenye, süd məhsulları və Şərq şirniyyatları istehsalı sahələri yaradılıb. Bu istehsal sahələrində Almaniya, Türkiyə və İtaliyadan gətirilən müasir texnoloji avadanlıqlar quraşdırılıb. Makaron sexində istehsal edilən müxtəlif növdə keyfiyyətli məhsul 350, 500 qramlıq, 10 kiloqramlıq kisələrdə, Şərq şirniyyatları istehsalı sahəsində hazırlanan Azərbaycan milli şirniyyatları – şəkərbura, Ordubad və Şəki paxlavaları, müxtəlif çeşidlərdə qat-qat, şəkərçörək, milli şirin çörək və digər unlu-qənnadı məmulatları nəfis tərtibatla bəzədilmiş taralarda satışa çıxarılır.

Fermer və fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərdən xammal şəklində alınan südün vaxtında tədarük olunması da diqqət mərkəzində saxlanılır. Süd xüsusi maşınlarla müəssisəyə daşınıb laborator analizdən keçirildikdən sonra istehsala buraxılır. Almaniyanın "GEA", Türkiyənin "Choromel", "Lipovak" şirkətlərindən müasir texnoloji avadanlıqlar alınıb quraşdırılıb, gündəlik istehsal gücü 15 ton olan süd məhsulları istehsalı sahəsində yüksəkkeyfiyyətli məhsul istehsalına nail olunub. Tədarük edilən, insan orqanizmi üçün vacib elementlərlə zəngin olan 100 faiz təbii süddən kərə yağı, pendir, qatıq və ayran istehsal olunan bu müəssisədə istehsal prosesi daha da təkmilləşdirilib, daxili bazarın tələbatına uyğun olaraq yeni çeşiddə süd məhsulları bazara çıxarılıb. Ötən ildə də bu istiqamətdə işlər davam etdirilib, xamaya olan tələbatı 100 faiz idxal hesabına ödənilən muxtar respublikamızda xama istehsalına başlanılıb, idxaldan asılılıq tamamilə aradan qaldırılıb. Xama 100, 200, 300, ayran 200, kərə yağı 250, 400 qramlıq, 1 və 4 kiloqramlıq, pendir isə 0,5, 1 kiloqramlıq plastik və 17 kiloqramlıq dəmir taralarda qablaşdırılır.

Müəssisənin fəaliyyətinin genişləndirilməsi, müasir texnoloji avadanlıqlar tətbiq olunmaqla istehsal gücünün artırılması, yeni istehsal sahələrinin yaradılması və əlavə işçi qüvvəsinin cəlb edilməsi məqsədilə Sahibkarlığa Kömək Fondundan əlavə dövlət maliyyə dəstəyi göstərilib. Bu vəsaitlə müəssisə müasir avadanlıqlarla təmin edilib. Eyni zamanda çörək sexində istehsal gücü saatda 3000 ədəd çörək olan tam avtomatlaşdırılmış yeni xətt istifadəyə verilib. Burada çörək dəmir üzərində deyil, daş üzərində bişirilir ki, bu da məhsulun daha keyfiyyətli istehsalı deməkdir.

İnsan sağlamlığı üçün vacib elementlərlə zəngin olan kəpəkli çörək yüksəkkeyfiyyətli qida məhsulu kimi alıcılar tərəfindən rəğbətlə qarşılanıb. Elə bunun nəticəsidir ki, satışa çıxarılan kəpəkli çörəyə tələbat get-gedə artıb, ötən dövr ərzində kəpəkli çörək istehsalına keçid tam təmin olunub. Alıcı tələbatının öyrənilməsi və buna uyğun olaraq yeni çeşiddə çörək istehsalı diqqət mərkəzində saxlanılıb, kəpəkli unla qarğıdalı ununun qarışığından hazırlanmış qarğıdalı çörəyi istehsalına başlanılıb. Eyni zamanda xəmirin yoğurulması və dinlənməsi prosesinin daha da təkmilləşdirilməsi məqsədilə müəssisədə Türkiyə istehsalı olan müasir texnoloji avadanlıqlar quraşdırılıb ki, bu da çörək istehsalı zamanı istifadə olunan qıcqırtma tozunu minimum həddə endirməyə imkan verir, çörəyin saxlanma müddətini artırır. Bu da israfçılığın qarşısını alır, hər bir istehlakçının ailə büdcəsinə müsbət təsir göstərir.

"Gəmiqaya Bərəkət Qida Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətində bütün istehsal prosesi İSO keyfiyyəti idarəetmə sisteminin və qida təhlükəsizliyinin tələblərinə tam uyğun şəkildə təşkil edildiyi üçün müəssisə İSO 9001 və İSO 22000 sertifikatına uyğunluğu təsdiq olunaraq sertifikatlaşdırılıb.

İldən-ilə fəaliyyəti genişləndirilən müəssisədə 200 nəfər çalışır.

**✍ Kərəm HƏSƏNOV**

## Melioratorlar yaz suvarma mövsümünə hazırlaşır

Naxçıvan Muxtar Respublikasında 2017-ci ilin yaz suvarma mövsümünü mütəşəkkil təşkil etmək məqsədilə Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi tərəfindən bir sıra tədbirlər həyata keçirilmiş, su anbarlarına suyun yığılmasına başlanmış, nasos stansiyalarında, kanallarda, hidrotexniki qurğularda təmir işi aparılmışdır. Ötən ay 18 kilometr magistral kanal, 20 kilometr ara arxları və 4 kilometr kollektor lildən təmizlənmişdir. Yaşayış məntəqələrini və əkin sahələrini sel sularının zərərli təsirindən qorumaq məqsədilə 2 kilometrdən artıq istiqamətləndirici bənd tikilmişdir.

Kəhrizlərin təmir-bərpası 2017-ci ildə davam etdirilmiş, Ordubad rayonunun Aşağı Əylis kəndindəki "Bazar çeşməsi" kəhrizinin təmiri başa çatdırılmışdır. Bu dövrdə 36 subartezian quyusu təmir olunmuşdur. 2017-ci il suvarma mövsümünə hazırlıqla əlaqədar olaraq təmirə ehtiyacı olan maşın-mexanizmlər, mexaniki və elektrik avadanlıqları da təmir olunaraq işlək vəziyyətə gətirilmişdir.

"Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı" layihəsi çərçivəsində Naxçıvan şəhərində çirkab sutəmizləyici qurğunun tikintisi davam edir. Layihə çərçivəsində Babək rayonunun Şıxmahmud kəndində 600 ədəd su sayğacı quraşdırılıb.

***Naxçıvan Muxtar Respublikası***
***Dövlət Meliorasiya və Su Təsərrüfatı***
***Komitəsinin mətbuat xidməti***

## Ordubadda quruculuq işləri genişləndirilib

***2016-cı ildə Ordubad rayonunda iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 57 milyon 386,8 min manat və ya 2015-ci illə müqayisədə 3,6 faiz çox investisiya yönəldilib. Tikinti-quraşdırma işlərində istifadə olunmuş investisiyanın həcmi 5,6 faiz artaraq 53 milyon 731,5 min manat təşkil edib.***



Bu dövrdə Ordubad şəhərində Texniki-Peşə və Sürücülük Məktəb kompleksi, 36 mənzilli yaşayış binası, "Naxçıvanbank" ASC-nin Ordubad rayon filialı, Baş Dizə kəndində 156 şagird yerlik yeni məktəb, kənd və xidmət mərkəzləri istifadəyə verilib. Hazırda Ordubad Dəmiryol Vağzalının yeni binasının və "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin İnfrastruktur İdarəsinin Ordubad Yol Sahəsinin inzibati binasının, Ordubad şəhərində içməli su və kanalizasiya sisteminin, Ordubad Su Elektrik Stansiyasının tikintisi davam etdirilir.

Bəhs olunan dövrdə quruculuq tədbirləri, əvvəlki illərdə olduğu kimi müxtəlif sahələri əhatə edib. Belə ki, əhalinin içməli suya olan tələbatını ödəmək üçün 21,6 kilometr məsafədə içməli su xəttində təmir işləri aparılıb, 2,4 kilometr məsafədə yeni içməli su xətti çəkilib, 1,2 kilometr kaptaj təmir olunub, 350 metr uzunluğunda yeni kaptaj istifadəyə verilib.

Ordubad Rayon Yol Təmir İstismar İdarəsi tərəfindən Ordubad şəhərdaxili, Dəstə-Dırnıs, Ordubad-Nüsnüs, Ordubad-Gənzə, Aza-Biləv-Parağa, Ordubad-Naxçıvan, Düylün-Üstüpü avtomobil yollarında, Aza-Biləv-Parağa avtomobil yolunun 4-cü kilometrindəki körpüdə təmir işləri aparılıb.

Ordubad Rayon Rabitə İdarəsi 27 ATS və 19 poçt bölməsi vasitəsilə rayon əhalisinə xidmət göstərir. Rayonun bütün kəndləri internetlə təmin edilib. Bu dövrdə 471 abonent sürətli internetlə təmin olunub, abonentlərin sayı 2185-ə çatdırılıb. İl ərzində 18906 metr fiber-optik kabel çəkilib. 5 ədəd abonent qutusu, 2 ədəd paylayıcı şkaf qoyulub. Kotam kəndində 96 nömrəlik, Dəstə kəndində 384 nömrə tutumlu yeni ATS qurularaq istifadəyə verilib.

Elektrik enerjisindən səmərəli istifadə etmək məqsədilə xeyli iş görülüb, 23 ədəd transformator yarımstansiyasında cari təmir işləri, 17 ədəd 10/0,4 kilovoltluq yarımstansiyada əsaslı təmir işləri aparılıb. 3 ədəd yeni transformator yarımstansiyası quraşdırılıb.

Yeni tikilmiş 76 mənzilə qaz xətti çəkilib, il ərzində 162 ədəd istismar müddətini başa vurmuş qaz sayğacı yeni sayğaclarla əvəz olunub.

**✍ Hafizə ƏLİYEVA**

# Mədəni-kütləvi tədbirlərin təşkilinə diqqət artmışdır

***Yola saldığımız 2016-cı ildə muxtar respublikada mədəniyyətin inkişafı təmin edilmiş, silsilə tədbirlər keçirilmiş, tarixi-mədəni irsimizin qorunub-yaşadılması qayğısına qalınmışdır. Aparılan quruculuq işləri zamanı yeni mədəniyyət obyektləri də istifadəyə verilmiş, tarixi abidələrimiz bərpa olunmuşdur.***

Naxçıvan şəhərində görkəmli rəssam Bəhruz Kəngərlinin adını daşıyan Rəssamlar Parkının istifadəyə verilməsi, Culfa rayonunda xalqımızın əyilməzlik simvolu olan Əlincəqala tarixi abidəsinin, Gülüstan türbəsinin, Şərur rayonunun Xanlıqlar kəndindəki Parçı İmamzadəsinin bərpa olunması tarixi-mədəni irsimizə qayğının ifadəsinə çevrilmişdir. Culfa rayonunun Saltaq və Gülüstan, Şahbuz rayonunun Daylaqlı və Kiçikoba, Babək rayonunun Xəlilli, Məzrə, Hacıvar və Yarımca, Şərur rayonunun Oğlanqala və Arbatan, Kəngərli rayonunun Yurdçu, Ordubad rayonunun Baş Dizə, Naxçıvan şəhərinin Bulqan kəndlərində istifadəyə verilmiş kənd mərkəzlərində mədəniyyət müəssisələri üçün lazımi iş şəraiti yaradılmışdır.

Xalqımızın milli dəyərlərinin yaşadılması, qorunması və təbliğ edilməsi sahəsində bir sıra işlər həyata keçirilmişdir. Novruz bayramında Naxçıvan şəhərində keçirilən xalq yaradıcılığı günlərində sənətkarların əl işləri, Azərbaycan xalqının tarixini özündə yaşadan müxtəlif əşyalar, milli mətbəx nümunələri nümayiş etdirilmişdir. Bundan başqa, “Xalq mahnı və təsniflərinin ifaçılıq müsabiqəsi – 2016”, muğam məclisləri keçirilmiş, milli mətbəx nümunələrinin toplanması davam etdirilmiş, “Naxçıvan folklorunda mətbəx elementləri” kitabı nəşr olunmuşdur. 15 İyun Milli Qurtuluş Günü münasibətilə Naxçıvan Qarnizonunun hərbi orkestrinin və Ərzurum Mehtərən Tağımının birgə konserti iki qardaş ölkə arasında dostluq münasibətlərinin ən gözəl ifadəsi olmuşdur.

“Naxçıvan – bəşəriyyətin beşiyi” III Beynəlxalq Rəsm Festivalı ötən ilin ən yaddaqalan mədəniyyət tədbirlərindəndir. Bu festivalın keçirilməsi Naxçıvanda rəssamlıq sənətinin inkişafına böyük töhfələr verməklə yanaşı, həm də muxtar respublikamızda mədəniyyətin, incəsənətin təbliği baxımından da əhəmiyyətlidir. Yola saldığımız il Naxçıvanda keçirilən çoxsaylı festivallarla yadda qalmışdır. “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində “Yaradıcı əllər”, “Göycə”, “İstedadlı uşaqlar”, “Naxçıvan çörəkləri”, “Plov və yallı”, “Arıçılıq məhsulları – bal” festivallarında milli mətbəx nümunələrinin, şirniyyatların və əl işlərinin satış-sərgisi təşkil edilmişdir. Bu festivallar muxtar respublika sakinləri və turistlərdə xoş təəssürat yaratmışdır.

Qədim diyarımızda görkəmli şəxsiyyətlərin yubileylərinin və əlamətdar günlərin qeyd olunması ənənəyə çevrilmişdir. Ali Məclis Sədrinin müvafiq sərəncamlarına uyğun olaraq ötən il görkəmli yazıçı-publisist Eynəli bəy Sultanovun 150 illik, bəstəkar Qəmbər Hüseynlinin 100 illik və Ordubad Şəhər Uşaq Musiqi Məktəbinin 50 illik yubileyləri qeyd olunmuşdur. Ümumilikdə, ötən il muxtar respublikada mədəni-kütləvi tədbirlərin sayı artmışdır.

Son illər qədim diyarımızda yeni muzeylərin yaradılması, muzeylərin fəaliyyətinin günün tələbləri səviyyəsində qurulması muzey işini təkmilləşdirmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 19 dekabr tarixli “Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında” Sərəncamına əsasən mühüm tədbirlər həyata keçirilmişdir. 2016-cı ildə muzeyləri 43 min 425-i əcnəbi vətəndaş olmaqla, ümumilikdə, 320 min 616 nəfər ziyarət etmişdir. Muzey fondlarının yeni eksponatlarla zənginləşdirilməsi sahəsində muxtar respublika sakinləri də fəal iştirak etmiş, muzeylərimizə 1468 yeni eksponat daxil olmuşdur. Muxtar respublikanın kitabxanalarında da ötən il oxucu-kitabxana əlaqələrinin düzgün qurulması diqqətdə saxlanılmış, kitabxanalarda mədəni-kütləvi tədbirlər və sərgilər keçirilmiş, mədəniyyət ocaqlarına 1841 adda 20 min 530 nüsxə çap məhsulu verilmişdir.

Yola saldığımız ildə uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərini 928 şagird bitirmiş, 2016-2017-ci tədris ilində müxtəlif ixtisaslar üzrə 1286 şagird qəbul edilmişdir. Şagirdlərdən 18-i sağlamlıq imkanları məhdud uşaqlardır. Naxçıvan Musiqi Kollecində də təhsilin keyfiyyətinin yüksəldilməsi, tələbələrlə aparılan işin daha da gücləndirilməsi, onların asudə vaxtının səmərəli keçməsi, yaradıcı kollektivlərin konsertlərinin təşkili diqqətdə saxlanmışdır. Kollecdə ustad dərslər təşkil edilmiş və musiqi kollektivlərinin müxtəlif tədbirlərdə ictimaiyyət qarşısında çıxışları olmuşdur. Bu dövrdə Naxçıvan Dövlət Filarmoniyasının Kamera və Xalq Çalğı Alətləri, Estrada orkestrlərinin hesabat konsertləri olmuş və 5 muğam məclisi keçirilmişdir.

Teatr kollektivləri də mədəniyyətə göstərilən qayğıdan bəhrələnərək yeni tamaşalar hazırlamış, muxtar respublika sakinlərinin asudə vaxtlarının səmərəli keçməsinə çalışmışlar. Belə ki, Naxçıvan Dövlət Musiqili Dram Teatrında “Əlincə qalası”, “Varlı qadın”, “Nadir şah”, “Arılar arasında” pyesləri tamaşaya qoyulmuşdur. Naxçıvan Dövlət Kukla Teatrı “Duz kisəciyi”, “Şahzadə Bəndalı” və “Seymurun sirli dünyası” tamaşalarını, Naxçıvan Dövlət Uşaq Teatrı “Danışan kukla”, “Meşə çaqqalsız olmaz”, “Kosanın toyu”, “Nadan xoruz”, “Saxta və şaxta babalar” tamaşalarını, Şərur Rayon Xalq Teatrı “Ac həriflər” tamaşasını və “Toy” etnoqrafik kompozisiyasını, Ordubad Rayon Xalq Teatrı “Kamança”, Babək Rayon Xalq Teatrı “Ezop”, “Xəcalət”, “Unuda bilmirəm”, Naxçıvan Şəhər “Gənclik” Xalq Teatrı “Qəşəmin yuxusu” tamaşalarını teatrsevərlərə təqdim etmişdir. Naxçıvan Dövlət Film Fondu tərəfindən il ərzində Naxçıvan şəhərində və rayonlarda 100-dən çox bədii, elmi-kütləvi, sənədli və cizgi filmi nümayiş etdirilmişdir.

*Mədəniyyət və Turizm Nazirliyinin kollektivi 2017-ci ildə qarşıya qoyulan vəzifələrin icrasını diqqətdə saxlayacaq, muxtar respublikada mədəni-kütləvi tədbirlərin əhatə dairəsi daha da genişləndiriləcəkdir.*

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti***

# Andiçmə mərasimi keçirilib

***Əlahiddə Ümumqoşun Ordusunda gənc əsgərlərin andiçmə mərasimi keçirilib.***

Naxçıvan şəhərindəki “N” hərbi hissədə keçirilən mərasimdə əvvəlcə hərbi hissənin Döyüş bayrağı sıra meydanına gətirilib. Andiçmə mərasiminə hazırlıqla bağlı məruzə edildikdən sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Yanvar ayı ərzində həqiqi hərbi xidmətə çağırılmış gənc əsgərlər Vətənə sədaqət andı içiblər. Mərasimdə gənc əsgərlərin valideynləri və yaxınları da iştirak ediblər. Tədbirdə çıxış edən zabitlər, əsgərlər, valideynlər hərbi and içən əsgərləri bu münasibətlə təbrik edərək onlara xidmətlərində uğurlar arzulayıblar. Sonra şəxsi heyət təntənəli marşla tribunanın önündən keçib.

Xüsusi təyinatlı bölmənin nümunəvi çıxışları maraqla və alqışlarla qarşılanıb.

# Fənn olimpiadasının final mərhələsi başa çatıb



***Naxçıvan şəhərindəki 14 nömrəli tam orta məktəbdə Naxçıvan Muxtar Respublikası fənn olimpiadasının final mərhələsi keçirilib.***

Ümumilikdə, altı fənn üzrə keçirilən olimpiada səhər saat $10^{00}$-dan $12^{00}$-dək davam edib. Şagirdlər riyaziyyat, fizika, kimya, biologiya, Azərbaycan dili, xarici dil fənləri üzrə 30 açıq test sualını cavablandırıblar.

Olimpiada iştirakçısı olan Culfa rayonunun Milax kənd tam orta məktəbinin 11-ci sinif şagirdi Rüqəyyə Zeynalova ilə söhbətimizdə o qeyd etdi ki, Culfa şəhərində keçirilən olimpiadanın 1-ci mərhələsində iştirak etdim: “Yüksək nəticə göstərdiyimə görə bu gün final mərhələsində iştirak etmək imkanı qazanmışdım. Olimpiadanın məqsədi şagirdlərin bilik və qabiliyyətini üzə çıxarmaqdır. Mən də çalışdım ki, məktəbimizin adını layiqincə təmsil edəm. Sualları düzgün cavablandırdığıma əminəm. İnanıram ki, qaliblər sırasında olacağam”. Şərur şəhərindəki Fizika-Riyaziyyat Təmayüllü Liseyin 10-cu sinif şagirdi İbrahim Qasımov da uğur qazanacağına əmindir. Sualları cavablandırmaq onun üçün də o qədər çətin olmayıb.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə 1026 şagirdin iştirakı ilə keçirilən olimpiadanın birinci mərhələsində yüksək nəticələr göstərən şagirdlər muxtar respublika turunda iştirak etmək hüququ qazanıblar.

**Xəbərlər şöbəsi**

***Əziz oxucular! Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 20 iyun tarixli “Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında” Sərəncamına uyğun olaraq, əqli və fiziki imkanları ümumtəhsil müəssisələrində təhsil almağa imkan verən, lakin hərəkət qabiliyyətinin məhdudluğu səbəbindən təhsil ala bilməyən sağlamlıq imkanları məhdud uşaqların tədrisə cəlb olunması məqsədilə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Distant Tədris Mərkəzi yaradılıb. “Şərq qapısı” qəzeti redaksiyası Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə distant təhsilə cəlb edilən sağlamlıq imkanları məhdud uşaqlar və yeniyetmələr barədə yazılar hazırlayacaq. Bu mövzuda hazırlanan ilk yazını oxuculara təqdim edirik.***

*Gələcəyə ümidlə*

# Məsafələr qısalanda...





Babək rayonunun Aşağı Uzunoba kəndində kiçik bir evdə, həyatdan çox böyük arzuları, istəkləri olan 14 yaşlı bir oğlan – Rauf Hüseynov yaşayır. Tale elə gətirib ki, balaca yaşlarından ayağı yer tutmayıb, elə bu səbəbdən də öz dünyasını evdə qurub. Ən böyük arzularından biri hamı kimi məktəbə getmək olsa da, əvvəllər fiziki əngəllər üzündən bu, ona müyəssər olmayıb.

Ancaq artıq bir neçə ildir ki, bu çətinliyi aradan qalxıb. İndi Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində yaradılan Distant Tədris Mərkəzində əqli və fiziki imkanları ümumtəhsil müəssisələrində təhsil almağa imkan verən, lakin hərəkət qabiliyyətinin məhdudluğu səbəbindən təhsil ala bilməyən 23 nəfərin siyahısında onun da adı var. Mərkəz tərəfindən Rauf istifadəsi üçün internet sistemi quraşdırılıb, kompüter alınaraq şəbəkəyə qoşulub. Həftənin üç günü Rauf heç bir çətinlik çəkmədən dərslərə qoşulur, oxuyur, öyrənir.

Dünən elə dərs saatlarında Raufun ailəsinin qonağı olduq, oxumağa, öyrənməyə böyük həvəs göstərən balacanı distant dərs zamanı müşahidə etdik. Distant Tədris Mərkəzinin müəllimi Vəfa Naibovanın dərs tapşırıqlarını xüsusi diqqətlə yerinə yetirən Rauf kompüterin monitorunda əksi görünən digər uşaqların cavablarını da izləyirdi.

Dərs arasında onunla söhbət etmək imkanımız oldu. Söhbət əsnasında dedi ki, artıq bu il üçüncü sinfi əla qiymətlərlə başa vuracaq. Müəllimini, onunla birlikdə dərs keçən uşaqları çox istəyir, onları kompüterin monitorunda görməyəndə darıxır. Gün ərzində zəng edib onlarla söhbət edir, hamısı ilə əlaqə saxlayır. Artıq uşaqlar da ona evdəkilər kimi doğmadırlar. Çox sevinir ki, məktəbə gedə bilməsə də, hamı kimi oxuyub bir peşəyə yiyələnəcək.

Raufun anası Səkinə Hüseynova isə distant dərslərə başlamasından sonra övladının əhval-ruhiyyəsində çox böyük dəyişikliklər olduğunu bildirir. Deyir ki, əvvəllər o, hamı kimi məktəbə getməməsi səbəbindən çox darıxır, tez-tez özünə qapanırdı. Ancaq dərslərə qatıldıqdan sonra çox ünsiyyətcil olub. O, indi başa düşür ki, tək deyil. Raufun dərslərdə iştirak etməsi bir valideyn kimi onu çox sevindirir. Buna görə də dövlətimizə minnətdardır.

Evdə olarkən Raufun yaxın qohumları da bizimlə həmsöhbət olmaq arzusunda olduqlarını bildirdilər. Söhbət əsnasında razılıq edərək dedilər ki, onlar da oxumağa böyük həvəsi olan Raufun heç bir əziyyət çəkmədən evdə təhsil almasına yaradılan şəraitə görə minnətdardırlar. Əvvəllər mövcud vəziyyətdən çıxmaq, Raufu məktəbə göndərmək üçün çalışıblar. Ancaq əllərindən bir şey gəlməyib. Yaxşı ki, bu gün dövlət qurumları insanların qarşılaşdıqları çətinliklərlə bu qədər maraqlanır, onları tez bir zamanda aradan qaldırırlar.

Aşağı Uzunoba kəndindən birbaşa Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinə yollanırıq. Distant Tədris Mərkəzinə daxil olduğumuzda Rauf artıq bu dəfə monitordan baxıb gülümsəyirdi. Deyəsən, qısa müddət sonra bizi başqa bir ünvanda görməsi onu təəccübləndirmişdi.

Müəllimi Vəfa Naibova Rauf haqda, eləcə də digər şagirdlər barədə çox gözəl fikirlər deyir. Bildirir ki, hamısı çox həvəslidirlər. Onlar oxumaq, öyrənmək istəyirlər. Mən də çalışıram ki, onlara həm bir müəllim, həm də bir yaxın dost kimi davranım.

Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin direktoru Ramin Səfərov isə deyir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı”nın qəbul edilməsi muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqlara qayğının davamlı xarakter aldığının göstəricisidir. Əvvəlkilər kimi bu Proqram da sağlamlıq imkanları məhdud uşaqların təhsil hüquqlarının təmin edəcək, onları tam və bərabərhüquqlu şəxsiyyət kimi formalaşdırmaqla özünəinam hissi yaradacaq, tədris prosesində müasir informasiya texnologiyalarından istifadə imkanlarını artıracaq, bu sahə üzrə müvafiq pedaqoji kadrlar hazırlanacaq. Çalışırıq ki, bizim də bu işə töhfəmiz olsun, Rauf kimi yüzlərlə uşaq mərkəzin imkanlarından maksimum şəkildə yararlana bilsin.

Bəli, heç kim xəstəlikdən, fiziki məhdudiyyətdən sığortalanmayıb. Ona görə də bu qəbildən olan uşaqlara dövlətimizin göstərdiyi həssaslığın əsas qayəsini cəmiyyətin hər bir üzvü daha dərindən anlamalı, belə uşaqlara qarşı daha isti münasibət göstərməli, onların ətraf insanlardan uzaqlaşmasına imkan verməməlidir.

**✍ Səbuhi HÜSEYNOV**

***Kəngərli Rayon Mərkəzi Xəstəxanasında əvvəllər istifadə olunmayan anesteziya-narkoz aparatının cari ilin fevral ayında işə salınması bir sıra cərrahi əməliyyatların aparılmasına imkan verib. Ötən şənbə günü burada 7 cərrahi əməliyyat aparılıb.***

# Bir gündə 7 cərrahiyyə əməliyyatı aparılıb

Səhiyyə müəssisəsinin həkim və orta tibb işçiləri əvvəlcə xəstələri ambulator müayinələrdən keçiriblər. Cərrahi müdaxiləyə ehtiyacı olan xəstələr üzərində proktoloji qiqant yırtıq, öd kisəsi əməliyyatları icra olunub. Əməliyyatlar uğurla başa çatdırılıb, xəstələr birgünlük müşahidədən sonra evlərinə buraxılıb.

Kəngərli rayonunun Qarabağlar kəndindən gəlmiş birinci qrup əlil Suğra Səfərova başqa yerlərə getmədən, ərazidə yerləşən səhiyyə müəssisəsində pulsuz əməliyyat olunmasına görə minnətdarlıq edib, bütün bunları aztəminatlı ailələrdən olan xəstələrə yönəldilmiş xüsusi sağlamlıq layihələrinin uğurlu icrası kimi dəyərləndirib. Digər xəstələr də yüksək səviyyədə göstərilən tibbi xidmətdən razı qaldıqlarını bildiriblər.

Cərrahi əməliyyatlar ilboyu şənbə və bazar günləri davam etdiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# Şahbuzun qış lövhələri









*Sadə peşə adamları*

## Hər zaman lazım olan peşə

***El arasında belə bir deyim var: "Dost başa baxar, düşmən ayağa". Elə bu gün də bu deyimə inananlar az deyil. Tarixboyu insanlar geyimə, xüsusilə də ayaqqabıya xüsusi fikir veriblər. Aid olduğu sosial təbəqəyə görə xalqımız müxtəlif formalı ayaqqabılardan istifadə edib.***

Qədim zamanlardan bəri şəhər əhalisinin böyük əksəriyyəti, kənd əhalisinin isə müəyyən qismi çarıq, çust geyinərdi. Bu geyim növünü tikənlərə isə çarıqçı, başmaqçı və yaxud da çəkməçi, təmir edənlərə isə pinəçi deyilirdi. Çəkməçiliyin dörd növü var idi. Bunlar pinəçilik, çarıqçılıq, başmaqçılıq və çəkməçilikdi. Bəzi peşə sahələri zaman keçdikcə unudulsa da, bu sahəyə maraq hər dövrdə olub. Bu qədim sənəti indi də yaşadanlar az deyil.

Naxçıvan şəhərinin Əliqulu Qəmküsar küçəsindəki balaca dükanda pinəçiliklə məşğul olan Sultan Ağalarovla bu peşə barədə söhbətləşdik. 20 ildir, bu peşə ilə məşğul olan Sultan usta deyir ki, uşaq vaxtlarından bu işin həvəskarı olub, bu peşəni özü öyrənib.

Onun dediklərindən: – İlk olaraq öz ayaqqabımdan başladım. Daha sonra ailə üzvlərimin, qonşuların ayaqqabılarını təmir etdim. İşimin bəyənildiyini gördükdə bu işə həvəsim daha da artdı. İlk vaxtlar ayaqqabı təmir edərkən biz əlimi deşər, ya da çəkic dırnağımı qaraldardı. Ancaq vaxt keçdikcə bunların hamısı arxada qaldı. Bir müddət öz həyətimizdə açıq hava altında işlədim. Sonra qərara gəldim ki, özümə balaca dükan açım. Bu dükanı da məhz o vaxt açdım. O vaxtlar həm çəkməçilik edirdim, həm də pinəçilik. Yəni həm ayaqqabı tikirdim, həm də təmir edirdim.

Usta deyir ki, son dövrlərdə xaricdən ayaqqabıların gəlməsi yerli ayaqqabılara marağı xeyli azaldıb. Əhalinin əksəriyyətinin aldığı bu ayaqqabılar ucuz və keyfiyyətsizdir. Yadımdadır, əvvəllər biz bir başmağı iki-üç il geyinərdik. İndiki ayaqqabıların dözümlülüyü çox aşağıdır. Üstəlik keyfiyyətsiz olduğu üçün də təmirə yaramır.

Usta onu da vurğulayır ki, əvvəlki kimi dəri başmaq sifariş edən çətin tapılır. Sifarişlər azaldığına görə mən də pinəçilik edirəm. Bura mənə doğmadı, işimi də çox sevirəm. Ailəmi bununla dolandırıram. Qazancımdan da çox razıyam. Yayda havalar isti olduğundan hər kəs yüngül ayaqqabılara üstünlük verir. Ona görə də ən çox müştəri qış aylarında olur. Gün ərzində orta hesabla 10-15 cüt ayaqqabı təmir edirəm. Uzun müddətdir, işləməyimə baxmayaraq, hər gün yeni bir şey öyrənirəm.

Sultan usta deyir ki, əgər bir peşəyə yiyələnmək istəyirsənsə, gərək, ilk növbədə, həvəsin ola. Yoxsa işdən tez bezərsən. Əgər həvəsin varsa, usta yanına getmədən də öyrənə bilərsən. Biz, əndazə, qəlib, mixət, kərki, iplik, çəkic, kəlbətin, qayçı və sair ləvazimatlar tikiş zamanı lazım olan vasitələrdir. Yapışqan, ip, dəri məmulatları isə işin əsasını təşkil edir. Ən gözəl dəri maral dərisidi. Belə ki, yumşaq olduğu üçün geyindikdə ayağa rahatlıq verir. Ayaqqabının dözümlü olmasının səbəblərindən biri də ipinin möhkəmliyidir. Buna görə də öncə ipə mum sürtürük ki, tez çürüməsin.

Sultan Ağalarov Azərbaycan xalqının ustad aşığı olan Aşıq Ələsgərin "Hayıfsan" şeirindən bir bəndi xatırladır:

*Siz təraş eylərsiz iynə-bizinən,*
*Bizimki də gəlib gedər sözünən.*
*Əyri ol əyriynən, düz ol düzünən,*
*Hər yetəni sən aldatma, hayıfsan!*

Ustad aşıq öz misralarında sənət, peşə sahiblərini xalqı aldatmamağa, düzgünlüyə səsləyir. Bu misraları öz işində örnək bilən Sultan usta sonda bu peşəni öyrənmək istəyən gənclərə öz tövsiyələrini bildirdi: "Xalqımızın əsrlərdir, qoruyub saxladığı bu peşəni davam etdirmək lazımdır. İnsan gərək zəhmətkeş olsun. Bu peşə zəhmət tələb edən peşədir. Eyni zamanda halallıq da olmalıdır. Kim bu peşəni öyrənmək istəyirsə, öz köməyimizi əsirgəmirik. Təki peşə yaşasın".

**Nail ƏSGƏROV**

## Boksçularımız beynəlxalq turnirdə 5 medal qazanıblar

İran İslam Respublikasının Xoy şəhərində boks üzrə beynəlxalq turnir keçirilib. Turnirdə İranın iki komandası ilə yanaşı, Türkiyə və Naxçıvan komandaları da mübarizə aparıb. İki gün davam edən yarışda boksçularımız uğurlu nəticə əldə ediblər. Belə ki, qazanılan 5 medaldan ikisinin əyarı qızıl olub. 64 kiloqram çəki dərəcəsində rinqə çıxan İbrahim Cəfərzadə və 69 kiloqram çəki dərəcəsində mübarizə aparan Elnur Mustafayev bütün rəqiblərinə qalib gələrək yarışın baş mükafatını qazanıblar. Digər üç boksçumuz isə gümüş medalla kifayətləniblər. 60 kiloqram çəki dərəcəsində Rufin Rəhmanov, 75 kiloqram çəki dərəcəsində Rasim Rzayev və 91 kiloqram çəki dərəcəsində Məhəmməd Məmiyev yalnız həlledici qarşılaşmada məğlub olublar.

İki qızıl, 3 gümüş medal qazanan Naxçıvan komandası beynəlxalq turnirdə komanda hesabında ikinci olub.

Sonda qalib idmançılara təşkilatçılar tərəfindən diplom, medal və kubok təqdim edilib.

**Ceyhun MƏMMƏDOV**

## Epidemioloji vəziyyət sabitdir

Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyindən verilən məlumata görə, Naxçıvan Muxtar Respublikasında mövsümi xəstəliklərin və zəhərlənmələrin qarşısını almaq məqsədilə ötən ay su təchizatı sistemlərində, ictimai, inzibati və fərdi binalarda, məişət tullantıları qoyulan meydançalarda 32 min 330 kvadratmetr dezinfeksiya və 450 kvadratmetr dezinseksiya tədbirləri həyata keçirilib. Müvafiq tədbirlərin davam etdirilməsi ilə bağlı qidalanma sənayesi, kommunal, ictimai-iaşə, ticarət, su təchizatı, müalicə-profilaktika müəssisələrinin rəhbərlərinə göstərişlər verilib. Nəticədə, muxtar respublikamızda yanvar ayında epidemioloji vəziyyət sabit olub, zəhərlənmələr baş verməyib, infeksiya ocaqlarında profilaktik və epidemiya əleyhinə tədbirlər həyata keçirilib. Yenidoğulmuş uşaqların 98,6 faizi idarəolunan yoluxucu xəstəliklərə görə peyvənd alıb.

Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin, Gigiyena və Epidemiologiya mərkəzlərinin əməkdaşları yanvar ayında bir neçə gözəllik salonu, bərbərxana, şadlıq evində, lavaş sexi, ət satışı mağazalarında, dərzi sexlərində, Stomatoloji Mərkəzdə yoxlamalar aparıblar. Qeyd olunan müəssisələrdə çalışan 140 nəfərin şəxsi tibbi müayinə kitabçalarına baxış keçirilib. Şəxsi tibbi kitabçası olmayan 13, dövri tibbi müayinəsi yarımçıq olan 73 nəfər müayinəyə cəlb edilib. 13 nəfərdən qan nümunələri götürülərək virus hepatitinə görə müayinə üçün Yoluxucu Xəstəliklər Mərkəzinə göndərilib.

Uşaq-yeniyetmə müəssisələrində, məktəblərdə monitorinqlər və maarifləndirici tədbirlər aparılıb.

Yanvar ayı ərzində Bakterioloji laboratoriya fəaliyyətini davam etdirib, 31 su, 39 yuyuntu və 974 digər nümunələrin müayinələri aparılıb.

Obliqat qrupların bakterioloji müayinələri diqqət mərkəzində saxlanılıb, səhiyyə üzrə 400, təhsil üzrə 754, qidalanma sənayesi, ictimai iaşə və ticarət üzrə 174, kommunal sahələr üzrə 74, sürücülük üzrə 16 nəfər olmaqla, bütövlükdə, 1418 nəfər müayinədən keçib.

**Xəbərlər şöbəsi**

***İtmişdir***

Salmanov Ədalət İbrahim oğlunun adına olan evin MH-0009855 seriya nömrəli çıxarışı itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 120